# Yeni tarixi mərhələ: strateji məqsəd və növbəti vəzifələr

## (fəlsəfi-sinergetik təhlil)



**I MƏQALƏ**

**Biz bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik.**

**Prezident İlham Əliyevin 14 fevral 2024-cü ildə andiçmə mərasimindəki nitqindən**

### Andiçmədən sonra

2024-cü il fevralın 14-də Azərbaycan elə bir tarixi möhtəşəm hadisəni yaşadı ki, onun əhəmiyyətinin dərki uzun illər davam edəcək. Çünki həmin gün Prezident İlham Əliyevin andiçmə mərasimi faktiki olaraq tarixi mərhələlərin kəsişmə zamanını və yeni mərhələyə keçidin ritmini (temporallığını) özündə ehtiva edirdi. Bu, dövlətçilik və tarixilik baxımından adi hadisə deyildi. Müstəqil Azərbaycan dövlətinin yeni mərhələyə başlamasını əks etdirən mükəmməl bir "simfoniya" idi! Elə bir səsləniş idi ki, onun sədaları uzun müddət "Azərbaycan" ideyasında, "müstəqil dövlət quruculuğu" kursunda, azərbaycançılıq məfkurəsində yeniləşmələrin məzmun və ritmini müəyyən edəcəkdir!

Andiçmə mərasimində hələ belə strateji məzmunlu nitq eşitməmişdik! Dünyanın ən inkişaf etmiş ölkələrində belə bunun nümunəsi yoxdur. Çünki bir mətndə Azərbaycan Prezidenti dövlətçilik üçün psinsipial əhəmiyyət daşıyan məqamları elə lakonik, dərin və inandırıcı təqdim etmişdir ki, onların həm də fəlsəfi-elmi təhlili zərurət kimi qarşıda dayanır!

Bu, sosio-humaitar sahədə çalışan hər bir Azərbaycan aliminin müqəddəs vəzifəsi olmalıdır! Zənnimcə, AMEA bu işin önündə gedəcək, müstəqil dövlətçiliyimiz, strateji inkişafımız üçün tədqiqatlarını Prezidentin qoyduğu tələblər səviyyəsində yerinə yetirəcəkdir! AMEA-nın indiki rəhbərliyinin həyata keçirdiyi elmi tədqiqatları təşkil etmək fəlsəfəsi və əsas istiqamətlərin müəyyən edilməsi siyasəti buna şübhə yeri qoymur! Mən burada məhz həmin kontekstdə dərk etməyə çalışdığım bəzi məqamların üzərində bir neçə məqalədə fəlsəfi-sinergetik aspektdə dayanmağa çalışacağam! Əlbəttə, məsələnin geniş və əhatəli təhlili kollektiv yaradıcı təfəkkür vasitəsi ilə reallaşa bilər.

Beləliklə, İlham Əliyev səslənişində hansı istiqamətləri önə çəkdi? Onlar çağdaş dövrdə müstəqil dövlət quruculuğu üçün vacib olan bütün istiqamətləri əhatə edir. Miqyasına görə həmin istiqamətləri daxili, regional və qlobal səviyyələrə aid olan prioritetlər kimi anlamaq mümkündür. Onlar da öz növbəsində, bir neçə altsferalara bölünmüşdür.

Məsələn, daxili miqyas üçün sosial, humanitar, təhsil, idarəetmə, ideologiya və gənclərin tərbiyəsi kimi istiqamətlər əksini tapmışdır. Regional miqyasda sülh və əməkdaşlığın qalıcı olması üçün müstəqil dövlətin fəaliyyətinin başlıca əlamətləri lakonik ifadə edilmişdir. Qlobal miqyasda gedən geosiyasi proseslərin dəqiq və obyektiv qiyməti verilmiş və onun fonunda müstəqil Azərbaycan Respublikasının fəaliyyətinin məntiqi və strategiyası açıqlanmışdır.

Bu kontekstdə Prezident İlham Əliyev tarixi bir tezisini irəli sürmüş və onu cəsarətlə əsaslandırmışdır. Dövlət başçısı milli-regional-qlobal siyasi proseslərin təhlili əsasında Türk Dövlətləri Təşkilatının daha da inkişaf etdirilməsinin dövlətçiliyimizin gələcəyi baxımından alternativsiz istiqamət olduğunu bəyan etmişdir! İlham Əliyev qətiyyətlə ifadə etmişdir ki, "bizim ailəmiz Türk dünyasıdır" və "bizim başqa ailəmiz yoxdur". Prezident İlham Əliyev tam haqlıdır, tam dəstəkləyirik və hansı səngərdə durmağı əmr etsə, orada hazırıq!

Belə çıxır ki, Prezident İlham Əliyev yeni tarixi mərhələdə dövlətçiliyin inkişaf etdirilməsinin bütün incəliklərini, o cümlədən hansı təşkilatda daha da güclənməyin lazım olduğunu dəqiq müəyyən etmişdir. Burada siyasi və geosiyasi baxımdan dövlətçilik üçün arxivacib olan bir məqam vardır.

Biz, İlham Əliyevin prioritet təşkilatı milli, regional və qlobal miqyaslarda Azərbaycan üçün münbit mühitin yaradılmasına imkan verəcək çoxlu sayda faktorların sistemli təhlili əsasında müəyyən etmişdir. Mayak faktor milli maraqların hər anda gözlənməsidir.

Aparıcı və müəyyənedici məqsəd müstəqil Azərbaycan Respublikasının və cəmiyyətinin daha da güclənməsidir.

Həyata keçirilmə mexanizmləri isə lider-cəmiyyət (iqtidar-xalq) birliyinin tarixi ənənədən gələn prinsiplər üzrə yeni səviyyəyə yüksəlməsi ilə əlaqəlidir.

İlham Əliyevin nitqinin başlıca tezisləri fundamental müddəalara, aparılan təhlillərə əsaslanır. Bu həqiqətin işığında mühüm hesab etdiyimiz və andiçmə mərasimindəki nitqin ruhuna aid olan ümumi məqamlara nəzər salaq.

Öncə, andiçmə mərasimini dövlətçilik baxımından tarixi dönüş nöqtəsi kimi təsəvvür edirikə, bunun fəlsəfi-sinergetik mənası üzərində dayanaq. Sonra Azərbaycan təcrübəsi kontekstində bir sıra tarixi ekskurs etməyə çalışaq. Burada indi yaşadığımız sevincli, qürurlu və məsuliyyətli günlərin bazasında böyük siyasi dahiliyin, liderlik uzaqgörənliyin, şəxsi qətiyyət, şücaət və cəsarətin durduğunu anlamaq zəruridir!

### Tarixi dönüş: həqiqət anı

Çağdaş dünyamızda dövlətçiliyin fəlsəfəsində və siyasi-nəzəri anlamında müsbət dönüşlər etmək hər ölkəyə, xalqa və onun liderinə nəsib olmur. Burada o qədər faktorların təsirlərini nəzərə almaq lazım gəlir ki, hələlik onları əksəriyyətin qəbul etdiyi təlim formasında bir "məntiqi sahədə birləşdirmək" mümkün olmamışdır.

Görünür, burada yalnız fəlsəfi-elmi konseptual dərketmə aparatının indiki imkanları ilə mövcud reallıq arasında ziddiyyətin yaranması rol oynamır. İnanırıq ki, konkret təcrübənin yetərsizliyi də öz təsirini göstərir. Müşahidələr göstərir ki, Azərbaycan təcrübədə olan bu boşluğu doldura bilən müstəqil dövlətdir!

Məhz Cənubi Qafqaz kimi mürəkkəb bir geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının müstəqil dövlət quruculuğunda davamlı olaraq mərhələləri uğurla keçməsi və bu zaman daxili ziddiyyətlərə düşməməsi, regional və qlobal miqyasda faydalı siyasi və geosiyasi balans yarada bilməsi nadir tarixi təcrübədir. Bununla Azərbaycan Respublikası həm milli miqyasda, həm də regional və qlobal miqyasların "geosiyasi qovşağında" müsbətə doğru tarixi dönüş etmənin həqiqət anını bütün dünyaya nümayiş etdirdi!

Azərbaycan nəzəri-konseptual aspektdə mükəmməl müstəqil dövlət quruculuğu konsepsiyasını hazırladı və eyni zamanda, praktikada onu reallaşdırdı! Proses davam edir. Bu məqama necə gəlindiyi də tam aydındır. Məsələnin digər aspektlərinə toxunmadan çağdaş dünya üçün çox aktual olan şəxsiyyət-lider kontekstində bir sıra fəlsəfi-sinergetik tezislərə baxaq.

### Ümummilli liderliyə yüksəlişin Azərbaycan təcrübəsi

Bu təcrübənin dünyada bənzəri yoxdur. SSRİ-nin son dövründə həm sürətlə siyasət olimpinə yüksələn, həm də bu yüksəlişə görə ciddi qısqanclıq və gözügötürməzliklə üzləşən Ulu öndər Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana gəlişi ilə özünü lider kimi "yenidən təqdim etdi". Bu, böyük bir siyasətçinin və məharətli diplomatın güclü liderlik transformasiyasının başlanğıcı idi. Müxtəlif tərəflərdən olan təzyiq cəhdlərinə baxmayaraq, Heydər Əliyev qısa müddətdə muxtar respublikada rəhbərliyə gəldi və böyük töhfələri ilə Naxçıvanın işğal olunmaq təhlükəsini sovuşdurdu. Paralel olaraq, Naxçıvanın Türkiyə ilə əlaqələrini yeni səviyyəyə yüksəltdi, İranla münasibətləri xeyli normallaşdırdı.

Naxçıvanda əsası qoyulan dövlət quruculuğu prosesi güclü lider-şəxsiyyətin Azərbaycanın siyasi səhnəsində aparıcı rol oynamağa başladığını ifadə edirdi. Bundan sonra əsas məsələ bu cür liderliyin müasir Azərbaycan üçün ənənəyə çevrilməsini təmin etməkdən ibarət idi. Ulu öndər Azəraycana Prezident seçiləndən sonra başqa istiqamətlərlə yanaşı, yeni liderlik strategiyası çərçivəsində yeni lider-şəxsiyyətin hazırlanmasına da böyük diqqət yetirdi.

Heydər Əliyevin bu strateji məqsədli fəaliyyəti Azərbaycan dövlətçiliyi üçün çox böyük töhfə idi. Çünki, birincisi, məsələ yalnız bir liderin çox uğurlu fəaliyyəti ilə məhdudlaşmır. Müasir dövlət quruculuğu və uğurlu liderliklə bağlı aparılan tədqiqatlar göstərir ki, hər hansı dövlət üçün tam müvəffəqiyyətli sayıla biləcək prosesdə bir liderin uğurlu olması, ölkədə ciddi və köklü islahatlar aparması ilə yanaşı, özünə layiqli siyasi varis yetişdirməsi də ciddi əhəmiyyət daşıyır. Burada "siyasi varis" dedikdə seçilmiş dövlət quruculuğu kursunu yeni şərtlər daxilində uğurla inkişaf etdirə biləcək milli liderin hazırlanması nəzərdə tutulur.

İkincisi, ölkədə köklü yeniləşmələrə başlayan lider (Heydər Əliyev), eyni zamanda, dövlət quruculuğu strategiyasını bütün sferalar üzrə elə qurmalıdır ki, strateji perspektivi təmin edilsin. O cümlədən, istənilən sürətlə dəyişən, "geosiyasi turbulentliyə düşən" proseslərin fonunda müstəqil dövlət quruculuğu kursu dönmədən, inam və qətiyyətlə davam etdirilsin. Konkret ifadə etsək, dövlət quruculuğu prosesi sınaqlardan çıxaraq, kəsintisiz aparılsın!

Üçüncüsü, dövlətin və ölkənin təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi üçün ümumi "yol xəritəsi" hazırlanmalıdır. Bu, uzun müddəti nəzərdə tutan və bütün riskləri, təhdidləri, təhlükələri sovuşduran mükəmməl proqramlar kompleksini hazırlamaq deməkdir. Bura sosial, siyasi, diplomatik, enerji, ekoloji, mənəvi-əxlaqi, mədəniyyət və digər sahələr üzrə konkret proqramların sistemli həyata keçirilməsi daxildir. Yalnız bu şəraitdə daxildə quruculuq işlərini rahat aparmaq mümkündür.

Dördüncüsü, bütün bunların reallaşması üçün sağlam regional və beynəlxalq geosiyasi mühitin formalaşdırılmasına ciddi töhfələr verə biləcək siyasi-diplomatik kursun müəyyən edilməsi zəruridir.

### Yüksəlişin yeni mərhələsi: İlham Əliyev milli lider kimi

Vurğulanan bütün müsbət özəlliklərə sahib olan Heydər Əliyev ümummilli liderliyə fəaliyyətinin miqyası və missiyasının harmoniyası sayəsində yüksəldi. Bununla da yuxarıda vurğuladığımız yeni liderlik və dövlət quruculuğu prosesinin müasir mərhələdə ənənəsini yaratdı!

Prezident İlham Əliyevin fəaliyyətinə məhz bu prizmadan baxmaq və onu anlamaq gərəkdir! Milli ideyanın birinci mərhələsinin "ərazi bütövlüyünün bərpası və suverenliyin tam təmin edilməsi" kimi müəyyən olunması məhz Ulu öndər Heydər Əliyevin ümumilli liderlik təcrübəsinin birbaşa ideya-siyasi və ideoloji bəhrəsidir.

Eyni zamanda, Heydər Əliyevin yeni liderlik ənənəsi müasirliyi, gələcəkdə də səmərəli ola biləcək liderlik fəaliyyətini ehtiva edir. Yəni yeni liderlik elə bir fəaliyyət sistemidir ki, orada keçmişin, indinin və gələcəyin qarşılıqlı əlaqəsi ciddi şəkildə nəzərə alınmışdır. Məhz bu keyfiyyətinə görə, Azərbaycanda yeni liderlik nümunəsi dövlət quruculuğunda siyasi varisliklər dövrün çağırışlarına adekvat reaksiya əsasında liderlik dəyərləri yaratmağa imkan vermişdir. Bu məqam keçilmiş mərhələ ilə yeni mərhələnin zaman "ritm qovşağında" (və ya "zaman sərhədində") olduqca əhəmiyyətli məqamları anlamağa şans yaradır.

O cümlədən, qətiyyətlə deyə bilərik ki, yeni tarixi mərhələnin başlanmasının, vəzifələrin və strateji məqsədin müəyyən edilməsinin təməlində bu sağlam liderlik təcrübəsi dayanır! Bu məqamı daim nəzərə almadan bundan sonrakı "inkişaf yol xəritəsi"nin bütün rənglərini müəyyən edə bilmərik. Andiçmə mərasimi və orada qalib Prezidentin strateji xarakterli nitqi həmin prizmada aydınlaşa bilər!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Xalq qəzeti .- 2024.- 16 fevral, № 35.- S.5.